# Çexiyalı qonaqlar Azərbaycan Milli Aviasiya Akademiyasında





Ölkəmizdə səfərdə olan Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin başçılıq etdiyi nümayəndə heyəti mayın 17-də Azərbaycan Milli Aviasiya Akademiyasında olub.

AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə akademiyanın Pilotların Hazırlığı Mərkəzi ilə tanış olublar. Sonra Azərbaycan Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev Çexiya nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan-Çexiya əlaqələrinin yüksək səviyyədə olduğunu qeyd edən rektor Arif Paşayev Azərbaycan aviasiyası barədə qonaqlara məlumat verib.

Ölkəmizin Çexiya ilə əlaqələrə önəm verdiyini, iki ölkə arasında əməkdaşlığın inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin, bu səfərlər zamanı əldə edilmiş razılaşmaların əhəmiyyətini vurğulayan Arif Paşayev bildirib ki, Azərbaycan və Çexiya siyasi, iqtisadi və humanitar sahələrdə sıx əməkdaşlıq edir. İki ölkə arasında mövcud əməkdaşlığın yüksək inkişaf potensialı olduğunu vurğulayan akademik mülki aviasiya sahəsində də geniş imkanların olduğunu deyib.

Arif Paşayev Milli Aviasiya Akademiyası, "Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkəti və Heydər Əliyev Beynəlxalq Aeroportu barədə qonaqlara məlumat verərək bildirib ki, 2018-ci ildə Azərbaycan mülki aviasiyasının 80 illik yubileyi təntənəli qeyd olunub. Hazırda AZAL postsovet məkanında mülki aviasiya sahəsində aparıcı aktorlardan birinə çevrilib, beynəlxalq aviasiya birliyinin üzvü olub. 2014-cü ildə Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni müasir terminalı istifadəyə verilib. Aeroport bu yaxınlarda nüfuzlu "Skytrax" auditor şirkətinin ən yüksək "5 Ulduz" qiymətinə layiq görülüb. Bu ən yüksək qiymət Heydər Əliyev Beynəlxalq Aeroportundan başqa cəmi 8 aeroporta verilib. AZAL isə qısa müddət ərzində geniş füzelyajlı "Boeing", "Airbus", "Embraer" kimi ən müasir təyyarələrin, qərbdə istehsal olunmuş helikopterlərin istismarına başlayıb. 2017-ci ildə aşağı büdcəli "Buta Airways" aviaşirkəti yaradılıb.

Pilotların Hazırlığı Mərkəzi barədə danışan rektor buranın MDB məkanında ən böyük tədris mərkəzi olduğunu vurğulayıb. O, mərkəzdə hazırkı pilotların gələcək pilotlara dərs keçdiyini bildirib. Akademik, həmçinin mərkəzdə Rusiya, Özbəkistan və digər ölkələrdən pilotların təcrübə keçdiyini də diqqətə çatdırıb.

Rektor Azərbaycanın Çex Respublikasının mülki aviasiya sistemində mövcud bir sıra mülki və hərbi təyyarələrlə maraqlandığını bildirib.

Ölkəmizdə olmaqdan məmnunluğunu ifadə edən Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri R.Vondraçek akademik Arif Paşayevi Çexiyaya səfərə dəvət edib.

"İki gün ərzində biz bir sıra görüşlər keçirdik, Azərbaycanın bir sıra sahələrdəki təcrübəsi ilə yaxından tanış olduq. Azərbaycan Prezidenti İlham Əliyevlə görüşümüz çox səmərəli keçdi. Azərbaycan Prezidenti də vurğuladı ki, bizim ölkələrimiz arasında iqtisadi əməkdaşlığın yaxşı perspektivləri mövcuddur. Nümayəndə heyətinin Azərbaycana səfərinin məqsədi ölkələrimiz arasında mövcud olan çox yaxşı münasibətlərin daha da inkişaf etdirilməsi işinə töhfə verməkdir".

R.Vondraçek Azərbaycanda müxtəlif sahələrdə aparılan köklü islahatların təqdir edildiyini, çex investorları tərəfindən ölkəmizə böyük maraq olduğunu diqqətə çatdırıb.

Çexiya mülki aviasiyası barədə məlumat verən qonaq bir sıra mülki və hərbi təyyarələrin istehsalı, istismarı və təmiri, eləcə də aviasiya vasitələrinin modernləşdirilməsi və yenilənməsi, texniki baxımdan yerli şəraitə uyğunlaşdırılmış müasir təyyarələr barədə danışıb.

Görüşdə Azərbaycanla Çexiya arasında aviasiya sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub, Bakı-Praqa-Bakı marşrutu üzrə aviareyslərin sayının artırılması və ikitərəfli təcrübə mübadiləsinə dair geniş fikir mübadiləsi aparılıb.

## YAP Səbail rayon təşkilatı Cocuq Mərcanlı məktəblilərini Bakıya gətirib



***Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının və Səbail rayonu C.Əskərov adına 50 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin bir qrup şagirdinin Bakıya səfəri reallaşıb.***

AZƏRTAC xəbər verir ki, səfərdə Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbindən 20 şagird, məktəbin direktoru Zamin Həziyev və 2 müəllim iştirak edir.

Cocuq Mərcanlı məktəbliləri Səbail rayonu C.Əskərov adına 50 nömrəli tam orta məktəbdə "Sinəsi dağlanmasın, bölünməsin bu torpaq" adlı tədbirdə iştirak ediblər.

Tədbirdə iştirak edən YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev bildirib ki, Azərbaycan Ordusu Aprel döyüşlərində öz gücünü düşmənə göstərdi. Məhz bunun nəticəsidir ki, düşmənin silahlı qüvvələrindən bir kilometr aralıda yerləşən Cocuq Mərcanlı kəndində insanlar rahat şəkildə yaşayırlar. Azərbaycan Ordusuna güvənən Cocuq Mərcanlı sakinlərinin burada rahat şəkildə yaşadığını deyən deputat dövlətin onlara yeni iş yerləri, məktəb yaratdığını söyləyib.

?Sonra C.Əskərov adına 50 nömrəli və Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəblərinin direktorları Sədaqət Həsənova və Zamin Həziyev Səbail rayon YAP təşkilatına bu cür tədbiri təşkil etdiyinə görə minnətdarlıqlarını bildiriblər. Qeyd edilib ki, bu tədbir məktəblilər arasında birliyi gücləndirir. Daha sonra məktəb direktorları təhsil ocaqlarının qardaşlaşması ilə bağlı niyyət protokolu imzalayıblar.

Tədbirin sonunda məktəblilərin hazırladığı kompozisiya nümayiş olunub.

Qeyd edək ki, üçgünlük səfər proqramı çərçivəsində məktəblilər Azərbaycan Xalça Muzeyində, Atəşgahda, Qala muzeyində və Yanardağda olacaqlar.

## *Ekspert:* Yeni islahatlar aqrar sahənin inkişafına böyük təkan verəcək

***Məlum olduğu kimi, ölkəmizdə ötən il keçirilən prezident seçkilərindən sonra islahatların yeni mərhələsi başlayıb və onların icrası üçün məqsədyönlü addımlar atılmaqdadır.***

Bununla yanaşı, Prezident İlham Əliyev bir sıra sahələrdə yeni iqtisadi islahatlar kursu elan edib. Bunlardan biri də kənd təsərrüfatı ilə bağlıdır. Onu da qeyd edək ki, indiyə qədər kənd təsərrüfatında bir neçə mərhələdə uğurlu islahatlar həyata keçirilib. Kənd təsərrüfatının inkişafı ilə bağlı bir sıra torpaqlar, müəssisələr özəlləşdirilib. Aqrar sahənin inkişafı ilə bağlı yeni emal müəssisələri tikilib. Fermerlərə güzəştli şərtlərlə kreditlər verilir. Həmçinin aqrar sahədə aparılan islahatlar çərçivəsində fermerlərin subsidiyalarla təmin olunması ilə bağlı mexanizmlər hazırlanıb.

Azərbaycanda indiyə qədər 17 aqropark inşa edilib. Bu il daha 10 aqroparkın tikilməsi planlaşdırılıb. Eyni zamanda, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Dövlət Aqrar Ticarət Şirkəti yaradılıb. Ötən il nazirliyin rayon və şəhər idarələri ləğv edilərək əvəzində Dövlət Aqrar İnkişaf Mərkəzi təsis edilib. Kənd Təsərrüfatı Nazirliyində Fermerlər Şurası təsis edilib. Həmçinin nazirlik yanında Aqrar Məsvərət Şurası yaradılıb.

İqtisadçı ekspert Vüqar Bayramov mövzu ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə aq-



rar sahədə inkişafın qeydə alınması əlbəttə ki, gözləniləndir: "Ümumiyyətlə, son iki il ərzində kənd təsərrüfatı sahəsində daha böyük inkişaf qeydə alınıb. Təbii ki, bu inkişafın baş verməsinin əsas səbəbi dövlətin dəstəyi ilə bağlıdır. Aqrar sahənin inkişafı ilə bağlı aidiyyəti qurumların qarşısında 3 əsas prinsip qoyulub. Onlardan biri kənd təsərrüfatı məhsullarının artımı, digəri ixrac potensialının artması və sonuncusu isə iş yerlərinin açılmasıdır. Bütün bu amillər istehsalın artmasına birbaşa təsir göstərir. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycanın ixrac coğrafiyası daha da böyüyür. Rusiya bazarında mövqeyimiz daha da genişlənməkdə davam edir. Bu da istehsalçıların sayının artmasına təsir göstərir. Məhsuldar torpaqlardan səmərəli istifadə olunması sayəsində bu sahədə inkişaf baş verir. Məlumdur ki, dövlət tərəfindən müəyyən tədbirlərin görülməsi nəticəsində illərlə becərilməyən torpaqlar istehsal prosesinə cəlb edilib. Aqrar sahənin inkişafında isə torpaqların səmərəli istifadə olunmasının xüsusi rolu var".

Ekspert qeyd etdi ki, aqrar sahədə islahatların bundan sonra daha da sürətlə həyata keçirilməsi planlaşdırılır: "Məqsəd odur ki, nəticələr daha səmərəli olsun. Çünki son illər ərzində aqrar sektora diqqət daha da artıb. Aqrar sektorda yetişdirilən müxtəlif məhsullara subsidiyalar ayrılır. Bu vaxta qədər çoxlu sayda güzəştli kreditlər verilib. Heç şübhəsiz ki, bundan sonra da bununla bağlı işlər görüləcək. Sumqayıtda böyük Azot zavodu tikilib. Bundan sonra azota olan tələbat yerli istehsal hesabına ödənəcək. Subsidiyalar, güzəştli şərtlərlə kreditlər bu il də veriləcək. Fərqli məqam isə o olacaq ki, verilən subsidiya və güzəştli kreditlərin daha səmərəli istifadəsinə diqqət artacaq. Bu sahədə yeni mexanizmlər tətbiq ediləcək ki, bu da aqrar sektorda şəffaflığın daha da artırılmasında mühüm rol oynayacaq. Fermerlərin təşəbbüskarlığına daha çox üstünlük verilməsi gözlənir. İslahatlar bu kimi məsələlərdə yeniliklər gətirəcək. Fikrimcə, aparılacaq yeni islahatlar bu sahənin daha da inkişafına böyük təkan verəcək".

**Cavid Əkbərov,**
***"İki sahil"***